# Taixə düşən illər

Professor Qəzənfər Paşayevin 1985-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən nəşr olunmuş və 1987-ci ildə isə Qasım Qasımzadənin "Ömrün əbədiləşən illəri" adlı son söz əlavəsi ilə təkrar işıq üzü görmüş "Altı il Dəclə-Fərat sahillərində" kitabını diqqətlə oxudum. Qeyd edim ki, kitabın 3-cü nəşri də son illərdə çap olunub, ancaq həmin kitabı mən təəssüf ki, tapa bilmədim. Yəqin ki, dəyərli kitab kimi oxucular onu "göydə götürüblər" - yəni satış yerlərində "yerdə qalmağa qoymayıblar".

Yazıçı Manaf Fərəc oğlu Süleymanovun 1987-ci ildə Azərnəşrdə nəşr olunmuş "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında neft Bakısının tarixi keçmişi haqda oxucularda necə aydın və əhatəli təsəvvür yaradılırsa, bu kitabda da İraq və iraqlılar barəsində o cür zəngin və ətraflı təsəvvür formalaşır. Kitabın redaktoru Ayaz Vəfalı "İraq necə yaxın olur" adlı ön sözdə yazır ki, "Görüb bildikləri ilə bərabər oxuyub eşidib bildikləri üzvi şəkildə qaynayıb-qarışır: adama elə gəlir ki, birnəfəsə danışılan maraqlı bir söhbəti dinləyirsən".

Doğrudan da, çoxumuzun haqqında eşitdiyimiz, kitablardan oxuduğumuz bu qədim mədəniyyət beşiyinə ayaq açıb gəzən professor Qəzənfər Paşayev burada əyani olaraq görüb şahidi olduqlarını canlı təsvirin dili ilə bizlərə çatdırır: "Qədim yunanlar İraqı Mesopotamiya - "iki çay arası" adlandırmışlar. Müasir İraqın ərazisi Dəclə və Fərat çayları hüdudlarından kənara çıxsa da, ölkə indi də Mesopotamiya kimi tanınır... Dəclə (1718 km) və Fərat (2300 km) çayları indi də Türkiyə dağlarından baş alaraq gəlir, gah iti, gah da lal axaraq, əkiz bacılar kimi "sallanaraq" bütün ölkədən keçir və Mesopotamiyaya həyat verir.



Ərəb dilində "sahil", "çay sahili" mənasında işlənən "İraq" sözünün də bu çaylarla bağlı yarandığını göstərirlər. İraqın əhalisi 13 milyon nəfərdir. Əhalinin 75 faizi ərəblərdir. Sonra kürdlər, daha sonra isə türkmən adlandırılan azərbaycanlılar gəlir. Ölkədə 250 min xristian və şimalda kürdcə danışan, lakin öz dinləri olan 60 minə qədər yezid yaşayır.

İraq strateji cəhətdən mühüm ərazidə yerləşir. Şimalda Türkiyə, şərq və şimal-şərqdə İran, qərb və cənub qərbdə Səudiyyə Ərəbistanı, Suriya, İordaniya, cənubda Küveytlə həmsərhəd olan bu ölkəyə hava, dəniz, şose və dəmir yolu ilə gəlmək olar. Ölkə daxilində uzunluğu üç min kilometrə qədər üç əsas dəmir yolu vardır: Bağdad-Bəsrə (569 km), Bağdad-Kərkük-Ərbil (427 km), Bağdad-Mosul-Tel-Köçək (531 km)".

***(Davamı 16-cı səhifədə)***




*(Əvvəli 15-ci səhifədə)*

Müəllif oxuduqlarının nümunəsində bu cür rəsmi məlumatları çatdırmaqla əslində bir daha oxucu yaddaşını duruldub - təzələyir, bu cür gərəkli informasiyanın fonunda görüb-şahidi olduqlarını şirin və ahəngdar bir dildə nəql edir. Misal üçün, kitabın bir yerindən oxuyuruq: "Misirdə bizə demişdilər ki, Qahirə ilə müqayisədə Bağdad kiçik kəndə bənzəyir. Lakin Bağdad gəlin kimi elə bəzənmiş, elə sığallanmışdı ki, ona məftun olmamaq mümkün deyildi.

Bu ilk təəssüratım elə qüvvətli idi ki, sonralar zaman da onu unutdura bilmədi. İraqlıların iftixarla dediyi: "Kim Bağdadı görməyibsə, dünyanın ən yaxşı guşəsini görməyib" - sözlərini həmişə təkrar etməyə hazıram" (s.16).

Bu parçadan aydın olur ki, Qəzənfər müəllim səyahət zamanı əvvəlcə Misirdə, Qahirədə olmuş, ondan sonra Bağdada gəlmişdir. Bağdad haqda eşitdiyi müqayisəni diqqətə çatdıran müəllif burda şahidi olduğu - gördüyü mənzərəni təsvir edir, hələ üstəlik Bağdadla bağlı deyilmiş fikirləri xatırlatmaqla oxucularda böyük maraq və məhəbbət oyadır.

Qeyd edim ki, kitabın sonunda verilmiş "Ömrün əbədiləşən illəri" adlı məqaləsində Qasım Qasımzadə Qəzənfər Paşayevin zəhmətinə yüksək qiymət verib, kitabın əhəmiyyətini belə dəyərləndirir:

"Bir ölkə haqqında elmi-bədii-sosioloji salnamə sayıla biləcək qarşımızdakı bu kitab onun müəllifinin təkcə İraq deyil, ümumən Yaxın Şərqin tarixi, bu günü, xüsusən də mədəniyyəti, ədəbiyyat və incəsənəti barədə mükəmməl biliyini, dərin müşahidə qabiliyyətini nümayiş etdirir. Altı illik səmərəli zəhmətin əbədiləşən səhifələrini nəzərdən keçirdikcə Q.Paşayevin şəxsində istedadlı dilçi, ədəbiyyatşünas, tarixçi, etnoqraf alimlə, sosioloq və jurnalistlə, ən ümdəsi də bütün bunları özündə cəmləşdirən, görüb-götürmüş şərqşünas bir müsahiblə üz-üzə dayanırıq. Onun böyük maraqla dinlənilən söz-söhbəti, sinədəftəri həm də janrların həmahəng kompleksidir: yol qeydləri, ictimai-siyasi icmal, xatirə, oçerk, bədii publisistika, etüd və əhvalat, rəvayət tərzində yazılan fəsillər-səhifələr üslub sököntüsünə gətirib çıxarmır, müvafiq məzmunun tələbləri baxımından cəzbedici olmaqla təsvir obyekti haqqında bütöv təsəvvür oyadır" (səh.222).

Həqiqətən də, çox yetərli-tutarlı bir dəyərləndirmədir. Kitabın məzmunu, əhatə dairəsi, müəllifin gücü və s. kimi məsələlərə konkret və obyektiv qiymətin ifadəsidir bu. Ancaq bu sözlərə onu da əlavə etmək istərdim ki, bu kitab həm də müəllifin böyük cəsarətinin göstəricisi hesab olunmalıdır. İndiki sərhədlərin açıldığı, quruluşun dəyişildiyi bir zamanda yox, məhz sovet hökuməti zamanında belə bir əsəri yazıb ortaya qoymaq böyük hünər idi. İraqı bir Şərq-islam ölkəsi olaraq bizə tanıtdı, kərküklüləri-türkmanları soydaşımız-qardaşımız olaraq bütün adət-ənənəsi, dili, musiqisi, bayatısıyla - ruhuyla bizə göstərdi. Altı il Dəclə-Fərat sahillərində yaşayıb-işləmək nəsibi olmuş professor Qəzənfər Paşayev bu kitabı ilə yaşaya-yaşaya işləməyi, işləyə-işləyə yaşamağı və eləcə də yaşatmağı, ömürdən geridə qalmış altı illik bir zamanı əbədilik öz ömründə və nəsillərin ömründə yaşatmağı nümayiş etdirdi. İlləri boşa verməmək - illəri yaşamaq, yaşatmaq və əbədiyaşar tarixə çevirmək hünəriniz hər birimiz üçün bir yaşam düsturu olmalıdır, Qəzənfər müəllim!



***Şakir ALBALIYEV***